*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   29 oktyabr 2016-cı il   № 84 (2099)   Qiyməti 25 qəpik


Ali Baş Komandan İlham ƏLİYEV:

*Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik...*

*Ön xətdən reportaj*

# "Xalq orduya, ordu xalqa güvənir"

*25 ilə yaxındır ki, Azərbaycanın ərazi bütövlüyü Ermənistan dövlətinin təcavüzkarlıq siyasəti nəticəsində işğala məruz qalıb. Nisbi atəşkəs olmasına baxmayaraq, hərbi təcavüzün davam etməsi regionda sülhə və əmin-amanlığa gerçək təhlükədir. Digər tərəfdən cəmiyyətimiz torpaqların işğalda qalması ilə barışmır. Ya Ermənistan işğal etdiyi ərazilərdən öz xoşuna çəkilməli, ya da silah yolu ilə torpaqlarımız istiladan azad edilməlidir.*



Bu ilin aprelində baş verən döyüşlər də Azərbaycan vətəndaşlarının ədalətli mübarizəyə atılmaq əzmini bir daha nümayiş etdirdi. Silahlı Qüvvələrimizin sıralarında döyüş sirlərinə yiyələnən gənclərimiz Azərbaycanın üzləşdiyi münaqişənin istənilən yolla həllinə tərəfdardır, yəni danışıqlar heç bir səmərə vermədiyi üçün gənc nəsil silaha sarılaraq ölkəmizin ərazi bütövlüyünü təmin etmək əzmindədir.

Düşmənlə təmas xəttində döyüş növbətçiliyi keçirən hərbi bölmələrdəyik. Zabit Seymur Abiyevlə birgə ön xətdə yerləşən taqımların birinə baş çəkirik. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı sahəsində yetərli təcrübəyə malik olan hərbçi son vaxtlar ordu-xalq birliyinin möhkəmlənməsindən fərəhlə söhbət açaraq aprel döyüşlərinin bu cəhətdən rolunu yüksək qiymətləndirir. Qeyd edir ki, xalqın öz əsgərinə, ordusuna olan güclü dəstəyi hərbi qulluqçuların döyüş ruhunun yüksəlməsində əsas əhəmiyyət kəsb edən amillərdəndir.

Təxminən on gün ərzində aramsız yağan yağışların ön xətdə fəsadlar törədəcəyi ilə bağlı narahatlığımı hiss edən zabit bildirir ki, istənilən hava şəraitində torpaqlarımızın etibarlı qorunmasına zaval yoxdur. "Fəxrlə qeyd etmək istərdim ki, hazırda ordumuzun ixtiyarına verilmiş müasir texnika və avtomobillər qarşıya qoyulan döyüş tapşırıqlarının icra edilməsinə tam təminat yaradır. Digər tərəfdən isə şəxsi heyətin yüksək döyüş və mənəvi-psixoloji hazırlığı bu tapşırıqların uğurla yerinə yetirilməsinə imkan verir".

- Gün ərzində döyüş növbətçiliyində heç bir hadisə baş verməyib, - deyə qürurlu görkəmi ilə diqqətimi cəlb edən kçik çavuş məlumat verir.

Öyrənirəm ki, Ağdam rayonundan olan döyüşçümüz başqa bir bölgədə əsgəri xidmətini başa vurandan sonra yenidən taleyini hərbə bağlamış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ələsgər Mehdiyevdir. Hələ dörd yaşından müharibənin acısını duymuş gəncimiz tabeliyində olan əsgərləri ilə hər an torpaqlarımızı işğaldan azad etməyə hazır olduğunu bildirir. "Müharibə o zaman qurtara bilər ki, torpaqlarımız işğaldan tam azad edilsin və düşmən ərazilərimizdən çəkilsin. Erməni millətçiləri xalqımızın mübarizə əzmini aprelin ilk günlərində dərk etdi, gərək bu qısamüddətli savaş onlara dərs olaydı. Qoy düşmənlərimiz bilsinlər ki, bu gün dünyanın qüdrətli orduları sırasında yer tutan Azərbaycan Ordusu qarşısında duran müqəddəs vəzifəni yerinə yetirməyə tam qadirdir."

Bəli, bir döyüşçümüzün dilindən eşitdiyimiz bu çağırış hər bir əsgərimizin, zabitimizin çağırışıdır. Atəşkəsin illərlə davam etməsindən səbri tükənən Azərbaycan döyüşçüsü savaş başlayacağı gün tam gücü ilə silaha sarılıb düşmənə qəti sözünü deyəcəkdir.

Çavuşun köməyi ilə ön xətdə döyüş növbəsində olan əsgərlərimizlə tanış oluram. Tovuz rayonundan olan əsgər Xəyal Alıyev artıq 16 aydır ki, hərbi xidmətdədir. Təcrübəli döyüşçünün söhbətini qələmə alıram.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycanın Müdafiə naziri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

*Oktyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırkı vəziyyətə dair məsələlərin müzakirə edildiyi görüşdə general-polkovnik Zakir Həsənov Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin 20 ildən artıqdır Ermənistanın işğalı altında olduğunu, bunun nəticəsində bir milyondan çox insanın doğma yurd-yuvasından didərgin düşdüyünü, qarşı tərəfin cəbhədə vəziyyəti gərginləşdirmək cəhdlərini bir daha qonaqların diqqətinə çatdırıb.

Nazir deyib ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxması ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul olunub. Lakin Ermənistan hakimiyyəti uzun illərdir beynəlxalq ictimaiyyətin haqlı tələbinə məhəl qoymur və mövcud status-kvonu saxlamaqda maraqlıdır.

H.Salber də öz növbəsində bildirib ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin tərəfdarıdır və bu istiqamətdə danışıqların davam etdirilməsi zəruridir.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi Hava Qüvvələrinin yeni Birləşmiş Komanda Məntəqəsi istifadəyə verilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrin modernləşdirilməsi çərçivəsində Hərbi Hava Qüvvələrinin idarəetmə sisteminin təkmilləşdirilməsi və yüksək texniki standartlar səviyyəsinə çatdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.*





Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Hava Qüvvələrinin tabeliyində olan hərbi hissəyə gəlib.

Müdafiə Nazirliyinin rəhbərliyi yeni təmir edilən hərbi şəhərciyin ərazisindəki qərargah, əsgər yataqxanası, yeməkxana, qazanxana, ərzaq anbarı, tibb məntəqəsi, transformator yarımstansiyası, rabitə qovşağı, sıra meydanı və digər obyektlərə baxış keçirib, hərbi qulluqçuların sosial-məişət və xidməti şəraiti, həmçinin döyüş fəaliyyəti ilə maraqlanıb.

Müdafiə naziri ən müasir və yüksək texnologiyalar əsasında yaradılmış avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilərək yeni istifadəyə verilən Qırıcı Aviasiya Bazası və Radiolokasiya hərbi hissəsinin Birləşmiş Komanda Məntəqəsinin açılışında iştirak edib.

Birləşmiş Komanda Məntəqəsinin fəaliyyəti barədə brifinqin təqdimatından sonra Hərbi Hava Qüvvələrinin döyüş tapşırıqlarının yerinə yetirilməsi ssenarisi üzrə təlim tapşırıqları icra olunub.

General-polkovnik Zakir Həsənova məruzə olunub ki, müasir texnoloji avadanlıqla təchiz edilən məntəqə Hərbi Hava Qüvvələrinin döyüş növbətçiliyinin yüksək səviyyədə aparılması, qoşunların qısa müddətdə döyüş vəziyyətinə gətirilməsi, eləcə də istənilən iqlim şəraitində və sutka ərzində düşmənin hava hədəflərinin izlənilməsi, kəşfiyyat məlumatlarının toplanılması, təhlili, qərarların vaxtında qəbulu və aviasiya qüvvələrinin döyüş tapşırıqlarını maksimal effektiv icrasını təmin edir.

Yaradılan şəraitlə tanış olan Müdafiə naziri gündəlik xidmətin və döyüş növbətçiliyinin aparılması ilə bağlı müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Xalq orduya, ordu xalqa güvənir"

**(Əvvəli 1-ci səhifədə)**



- Həmyaşıdlarım kimi, mən də bir vaxtlar əsgəri xidmətə çağırılacağım günü səbirsizliklə gözləyirdim, - deyir Xəyal. - Oğullar Vətən üçün doğulur, biz anamız kimi Vətənimizin də təəssübünü çəkməliyik. Qürurluyam ki, xidmətdə olduğum müddətdə torpaqlarımızın keşiyində mətinliklə dayanmışam, döyüş sirlərinə yiyələnmişəm. Əgər döyüş əmri verilərsə, son nəfəsimə kimi torpaqlarımızı işğaldan azad etmək üçün mübarizə aparmağa hazıram. Qoy düşmənimiz də dərk etsin, anlasın ki, bu gün biz apardığımız mübarizənin haqq işi olduğunun fərqindəyik. Haqq uğrunda savaş isə yalnız qələbə ilə yekunlaşır.

Mirkazım Quliyev isə orduya Cəlilabad rayonundan çağırılıb. 10 ayın əsgəri ilə söhbətimdə ön xətdə onların xidməti üçün yaradılmış şəraitlə, ərzaq-əşya təminatı ilə maraqlanıram. Əsgər deyir ki, heç nədən korluq çəkmirlər. "Keyfiyyətli yeməklərlə qidalanırıq, pal-paltar sarıdan ehtiyacımız yoxdur. Qışa ciddi hazırlıq görülüb, buna görə də soyuqların düşməsindən qorxmuruq. Yuxarı komandanlığın zabitləri tez-tez bizə baş çəkir, məişət qayğılarımızla dərindən maraqlanırlar. Göstərilən diqqət və qayğı isə bizi daha da nümunəvi xidmət etməyə ruhlandırır. İstənilən vaxt ürəklə döyüşməyə hazırıq."

- Mən isə gənc əsgərlər taborundan bir neçə gün əvvəl gəlmişəm, - deyə Siyəzən rayonundan olan əsgər Seymur Hacıyev söhbətimizə qoşulur. - Döyüş növbətçiliyinə getdiyim ilk günün həyəcanı hələ canımdan çıxmayıb. Əvvəlcə döyüş postuna tək çıxmadım, təcrübəli bir döyüşçü ilə birgə növbətçilik keçirirdim. Artıq Vətənimizi qorumağı mənə də etibar ediblər. Hərbi xidmətim dövründə döyüş sirlərinə dərindən yiyələnərək daim nümunəvi hərbçi olacağıma söz vermişəm.

Səngər boyu görüşüb söhbətləşdiyim əsgərlərdən xoş ovqatla ayrılıram. Torpaqlarımızın keşiyində dayanan mətin və iradəli gənclərimizin söhbətləri mənə də qürurlu hisslər yaşatdı. Bir daha düşündüm ki, apardığı mübarizənin haqqa tapındığına güvənən əsgərlərimiz Qələbə əzmindədirlər.

Xalq orduya, ordu xalqa güvənir.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu", fotolar M.MÖHBALIYEVİNDİR**

# Müdafiə naziri Azərbaycan Yazıçılar Birliyinin üzvləri ilə görüşüb

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 27-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvləri ilə görüşüb.*



Əvvəlcə görüş iştirakçıları Silahlı Qüvvələrin Baş Qərargahının binasında ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar.

Sonra qonaqlar Silahlı Qüvvələrin Baş Qərargahının binasında yaradılan ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin əks olunduğu muzeyi ziyarət ediblər.

Qonaqlar, həmçinin Silahlı Qüvvələrimizin inkişafından bəhs edən filmə baxıblar.

"Dəyirmi masa" ətrafında davam edən görüşdə Müdafiə naziri qonaqlara Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduda ciddi islahatların aparılmasına dair verdiyi tapşırıqların icrası ilə əlaqədar görülən işlər, hərbi qulluqçuların sosial-məişət və xidməti şəraiti, həmçinin döyüş fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar və perspektivlər barədə ətraflı məlumat verib.

Görüşün əhəmiyyətindən danışan AYB-in sədri, Xalq yazıçısı Anar bu cür tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini vurğulayaraq bildirib ki, ziyalılar, ictimai xadimlər Azərbaycan əsgərinin yanında olmaqla bərabər, gənclərimizin, gələcək nəslin vətənpərvərlik ruhunda, döyüş əzmində tərbiyə olunmasında müstəsna rol oynamalıdırlar və bu iş daim həyata keçirilməkdədir.

Xalq şairləri Fikrət Qoca, Nəriman Həsənzadə və Sabir Rüstəmxanlı, xalq yazıçıları Çingiz Abdullayev və Mövlud Süleymanlı, eləcə də akademiklər Teymur Bünyadov və İsa Həbibbəyli, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov, Rəşad Məcid, Nazim İbrahimov, Rauf Aslanov, Səlim Babullaoğlu, Şahin Əbilov, Azər Turan, Tofiq Məlikli və Xəyal Rza Silahlı Qüvvələrlə yazıçılar, şairlər, ziyalıların əməkdaşlığının intensivləşməsini zəruri edən məqamlardan danışaraq cəmiyyətdə vətənpərvərlik təbliğatının gücləndirilməsinə yönələn təkliflərini səsləndirib, fikir mübadiləsi aparıblar.

Sonda xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# İstefada olan general-mayor Əli İmran oğlu Kazımov vəfat edib



Azərbaycan Silahlı Qüvvələrinə ağır itki üz vermişdir. Uzun sürən xəstəlikdən sonra istefada olan general-mayor Əli İmran oğlu Kazımov 2016-cı il oktyabrın 26-da ömrünün 60-cı ilində vəfat etmişdir.

Əli İmran oğlu Kazımov 17 fevral 1956-cı ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Nürgüd kəndində anadan olub.

1973-cü ildə Bakı şəhərindəki 8 nömrəli orta internat məktəbini bitirdikdən sonra S.M.Kirov adına Qırmızıbayraqlı Xəzər Ali Hərbi Dəniz Məktəbinə daxil olub və şturman fakültəsini müvəffəqiyyətlə başa vuraraq "mühəndis-şturman" ixtisasına yiyələnib.

Ə.İ.Kazımov 1978-1989-cu illərdə Şimal Donanmasında xidmət edərək mühafizə gəmisində şturman, atom sualtı qayığında qrup komandiri, xilasedici gəmilər divizionu komandiri və maqnitsizləşdirmə gəmisinin komandiri vəzifəsinin icraçısı kimi göstərilən etimadı layiqincə doğruldub.

1989-1992-ci illərdə Leninqrad şəhərində Arxa Cəbhə və Nəqliyyat Hərbi Akademiyasının komandanlıq fakültəsində ali hərbi təhsil alan zabit Ə.İ.Kazımov SSRİ dağıldıqdan sonra könüllü olaraq 2-ci dərəcəli kapitan kimi Azərbaycana qayıtmış və 1992-ci ilin sentyabrından 1993-cü ilin noyabrınadək Hərbi Dəniz Qüvvələri qərargahının təşkilat-səfərbərlik və komplektləşdirmə bölməsinin rəisi vəzifəsində xidmətini davam etdirib.

1993-cü ilin dekabrından 1994-cü ilin sentyabrınadək cəbhə bölgəsində "N" nömrəli briqada komandirinin arxa cəbhə üzrə müavini vəzifəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib.

1995-ci ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbində "İqtisadiyyat və qoşun təsərrüfatı", "Qoşunların arxa cəbhəsi" kafedralarının rəisi, 1995-ci ilin iyunundan isə Müdafiə Nazirliyi Təşkilat-Səfərbərlik İdarəsi rəisinin müavini və Təşkilat-Səfərbərlik İdarəsinin rəisi - Baş Qərargah rəisinin müavini vəzifəsini icra etmişdir.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 fevral 1996-cı il tarixli əmri ilə Ə.İ.Kazımova "1-ci dərəcəli kapitan" və Azərbaycan Respublikası Prezidentinin 25 may 1998-ci il tarixli əmri ilə "general-mayor" ali hərbi rütbəsi verilmişdir.

Sonralar Müdafiə nazirinin məsləhətçisi, Müşavirlər qrupunun müşaviri, İnspektorlar qrupunun inspektoru vəzifələrində xidmət edən general-mayor Əli İmran oğlu Kazımov 17 oktyabr 2014-cü ildə xəstəliyə görə istefaya buraxılmışdır.

Onun Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilərək 10 döyüş medalı ilə təltif olunub və müxtəlif mükafatlara layiq görülüb. Azərbaycan Respublikasının Silahlı Qüvvələr və müharibə veteranı idi.

Xidmət etdiyi dövrdə daim hərbi kollektivdə nüfuz qazanmış, komandanlığın etimadını doğrultmuşdur. İstefada olan general-mayor Əli İmran oğlu Kazımovun əziz xatirəsi Silahlı Qüvvələr şəxsi heyətinin və onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

ALLAH rəhmət eləsin!

**Müdafiə Nazirliyinin rəhbərliyi**

# Vida mərasimi

***Oktyabrın 27-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində istefada olan general-mayor Əli Kazımov ilə vida mərasimi keçirildi.***



Hansı vəzifəyə təyin edilməsindən asılı olmayaraq bacarıqlı zabit kimi öz işinə həmişə məsuliyyətlə yanaşıb, göstərilən etimadı müvəffəqiyyətlə doğruldub, Azərbaycan Silahlı Qüvvələrinin şərəfini həmişə uca tutub. Məhz düzgünlüyü, yüksək hərbi səriştəsi, vəzifə borclarına prinsipial münasibət göstərməsi, tabeliyindəkilərə tələbkarlığı onun Təşkilat-Səfərbərlik İdarəsinin rəisi - Baş Qərargah rəisinin müavini vəzifəsinədək yüksəlməsinə imkan yaratmışdı.

Ancaq təəssüflər olsun ki, çarəsiz xəstəlik ona Azərbaycan naminə xidmətini davam etdirməyə mane oldu və səhhətində yaranmış problem ucbatından 17 oktyabr 2014-cü ildə istefaya buraxıldı.

Azərbaycanın müstəqilliyi və azadlığı, Silahlı Qüvvələrimizin formalaşması naminə bilik və bacarığını əsirgəmirdi.

General-mayor Əli Kazımovun xatirəsi Silahlı Qüvvələrimizin bütün şəxsi heyəti və silahdaşları tərəfindən həmişə əziz tutulacaq.

Vida mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi, mərhum generalın ailə üzvləri və yaxınları iştirak edirdilər. Müdafiə Nazirliyinin rəhbərliyi, Silahlı Qüvvələrin qoşun növləri komandanları, yüksək rütbəli zabitlər üzərinə Azərbaycan Respublikasının Dövlət bayrağı sərilmiş tabutun yanında fəxri qarovulda dayanaraq ona ehtiram göstərdilər.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək mərhum general Əli Kazımovun həyat və xidmət yolundan danışdı, onun Silahlı Qüvvələrimizdə həmişə hörmət və ehtiramla xatırlanacağını bildirdi.

Mərhumun yaxın qohumu Səfər Qarayev çıxış edərək ona göstərdikləri diqqət və qayğıya görə, başda Müdafiə naziri general-polkovnik Zakir Həsənov olmaqla, Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığını bildirdi.

Sonra hərbi orkestrin müşayiəti ilə mərhum general son mənzilə yola salındı.

**"Azərbaycan Ordusu"**

# Ermənilərin təxribatının qarşısı alınıb

Oktyabrın 26-da axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri, mürəkkəb iqlim şəraitindən istifadə edərək, cəbhənin cənub istiqamətində mövqelərimizə yaxınlaşmaqla təxribat törətməyə cəhd göstəriblər.

Düşmən tərəfinin fəaliyyəti əvvəlcədən aşkar edilərək ona qarşı qabaqlayıcı atəş zərbələri vurulub. Ölü və yaralı olaraq itki verən düşmən geri çəkilməyə məcbur edilib.

Müdafiə Nazirliyi xəbərdar edir ki, qoşunların qarşıdurma xəttində vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Gəncə şəhərində "Həyatda qəhrəmanlığa həmişə yer var" devizi altında hərbi vətənpərvərlik tədbiri keçirilib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Gəncə şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanları şəhid Rəfael Əsədov və İqor Makeyevin ad günləri münasibəti ilə oktyabrın 27-də Gəncə şəhərində "Həyatda qəhrəmanlığa həmişə yer var" devizi altında hərbi vətənpərvərlik tədbiri keçirilib.*




Əvvəlcə bir qrup hərbi qulluqçu və şəhər ictimaiyyətinin nümayəndələri Bakı və Gəncə Şəhidlər xiyabanlarına gedərək polkovnik Rəfael Əsədovun və əsgər İqor Makeyevin məzarlarını ziyarət ediblər.

Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının geniş tamaşa salonunda Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə teatrlaşdırılmış rekviyem-tamaşa təqdim edilib.

Aparıcılar xalqımızın hərbi şöhrət tarixindən söhbət açıb, hərbi marşlar, vətənpərvərlik şeir və mahnıları ifa olunub, şəhid milli qəhrəmanların həyat və döyüş yolu haqqında ətraflı məlumat verilib.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, qəhrəmanlıq xalqımızın qanına hopmuş ali bir hissdir və həyatda qəhrəmanlığa həmişə yer var. Qədirbilən xalqımız qəhrəmanlıq ənənələrini qoruyur, inkişaf etdirir və qəhrəmanlıq estafeti uğurla nəsildən-nəslə ötürülür.



Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə hərb tariximizə sonsuz ehtiram və məhəbbətlə yanaşmış, əsrlər boyu torpaqlarımıza təcavüz edən yadelli işğalçılar qarşısında boyun əyməyən, diz çökməyən xalq qəhrəmanlarının hünər və rəşadətlərini yüksək qiymətləndirmişdir.

"Xalq öz qəhrəmanlıq tarixini öyrənmədən, qiymətləndirmədən yeni qəhrəmanlar yetişdirə bilməz", - deyən Ulu Öndərimiz gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində ata-babaların qəhrəmanlıq ənənələrindən bəhrələnməyi, bu ənənələri şərəf və vicdanla davam etdirməyi həmişə məsləhət görərdi. Çünki gələcək qəhrəmanlıqların, igidliklərin təməli məhz tariximizdədir, ata-babalarımızın keçdiyi şanlı döyüş yolundadır. Əgər bu gün hər hansı bir xalq tarix səhnəsindədirsə, deməli, onun tarixi inkişafında, xalq kimi formalaşmasında özünəməxsus qəhrəmanlıq nümunələri olmuşdur.

Tədbirdə vurğulanıb ki, bu gün də möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ideoloji sferada hərbi şöhrət tariximizin təbliği, gənclərin əcdadların qəhrəmanlıq ənənələri ruhunda tərbiyəsi məsələləri prioritetdir.

Tədbirdə bildirilib ki, gəncəlilər də Azərbaycanın hərb tarixinə parlaq və yaddaqalan səhifələr yazıb. Təkcə Cavad Xanın adını xatırlamaq kifayətdir ki, gəncəlilər işğalçılara qarşı ellikcə vuruşmuş, Vətən uğrunda canlarını və qanlarını əsirgəməmişlər.

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda 400 nəfərdən çox gəncəli şəhid olmuş, onlardan 5 nəfəri Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş, onlarla döyüşçü orden və medallarla təltif olunmuşdur.

Polkovnik Rəfael Əvəz oğlu Əsədov 1952-ci il oktyabrın 27-də bu şəhərdə doğulmuş, Tbilisi Ali Artilleriya Məktəbi və Sankt-Peterburq Hərbi Artilleriya Akademiyasında hərbi təhsil almış, SSRİ Silahlı Qüvvələrinin məhdud kontingenti qüvvələri tərkibində Macarıstan, Vyetnam və Əfqanıstanda qulluq edərək "leytenant" rütbəsindən "polkovnik" rütbəsinədək yüksəlmişdir.

Vətənimizin başının üstünü qara buludlar alanda o, qəlbinin hökmü ilə Vətənə qayıtmış, taleyini yenicə yaranmaqda olan Milli Ordumuzla bağlamışdır.

Artilleriya qoşunlarımızın yaradılmasında, müasir zenit batareyasının təşkilində öz bilik və bacarığını əsirgəməyən polkovnik Əsədov Ağdam, Goranboy, Tovuz, Gədəbəy döyüş bölgələrində aparılan hərbi əməliyyatların təşkilatçısı və fəal iştirakçısı kimi böyük şöhrət qazanmışdır. Onun rəhbərlik etdiyi döyüşlər həmişə uğurla nəticələnmiş, həmin əməliyyatlar zamanı düşmən yüzlərlə döyüşçüsünü və hərbi texnikasını itirmişdir.

1992-ci il noyabrın 12-də növbəti əməliyyata hazırlıq zamanı döyüş mövqelərinə baxış keçirərkən yaxınlıqda partlayan mərmi qəlpələrindən həlak olan polkovnik Əsədov Rəfael Əvəz oğluna Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Polkovnik R.Əsədovun xatirəsi həm xalqımız, həm gəncəlilər, həm də Silahlı Qüvvələrimizin şəxsi heyəti tərəfindən həmişə əziz tutulur.

Vətənpərvərlik tədbirinin iştirakçıları 1971-ci il oktyabrın 27-də Gəncə şəhərində fəhlə ailəsində dünyaya göz açan qəhrəman eloğlumuz İqor Vladimiroviç Makeyevin də qısa, lakin mənalı ömür yoluna da nəzər salıblar.

Qeyd olunub ki, İqor Makeyev Mir Cəlal adına Kəpəz rayon 39 saylı orta məktəbini bitirib. 8 saylı texniki-peşə məktəbində avtomobil çilingəri peşəsinə yiyələnib. Bakıda desant qoşunları hissəsində xidmət keçib. Sonra da Rostov vilayətinə, çavuş məktəbinə göndərilib.

Azərbaycanda vəziyyət gərginləşəndə, erməni silahlı dəstələri sərhədlərimizi atəşə tutanda, günahsız insanların qanları töküləndə, yaşayış məntəqələri darmadağın ediləndə, İqor hərbi xidmətini yarımçıq qoyaraq Vətənə qayıdır və gəlişini anasına bu cür izah edir: "Ana, mən Azərbaycanda dünyaya göz açmışam. İlk addımlarımı bu torpaqda atmışam. Bura mənim Vətənimdir. Özümü də bu torpağın övladı sayıram. Övlad Vətənini dar gündə qoyarmı? Mən Azərbaycanı qorumalıyam, yeri gəlsə onun yolunda canımı da qurban verərəm".

İqor Makeyev döyüşçülərə qoşulur. Çox keçmir ki, onu taqım komandirinin müavini vəzifəsinə təyin edirlər.

Aparıcılar məlumat verirlər ki, 1992-ci il iyunun 5-də sübh tezdən erməni quldurları Naxçıvanik kəndinə qəflətən hücuma keçir. İqor dərhal istirahətdə olan bütün şəxsi heyəti ayağa qaldırır. Döyüş bir saata yaxın davam edir. Düşmən xeyli canlı qüvvə ilə hücuma keçdiyindən vəziyyət gərginləşir. Lakin buna baxmayaraq İqor və onun taqımı son güllələrinə qədər döyüşürlər. Vəziyyətin daha da gərginləşməsini və arxadan kömək gəlmədiyini görən İqor yaralıları çıxarmaqdan savayı özgə bir yol qalmadığını hiss edir və atəşlər altında neçə döyüşçünün həyatını xilas edir. Naxçıvanik düşmən tərəfindən ələ keçirilir. Lakin bu 3-4 saat çəkir. Taqım komandiri İqor Makeyev köməyə gələn qüvvələrlə birlikdə geriyə qayıdaraq yenidən kəndi azad edirlər. Bu döyüşdə İqor Makeyev xüsusilə fərqlənir.




Ağdam və Tərtər döyüşlərində İqor Makeyev daha böyük qəhrəmanlıq nümunələri göstərir. Bu istiqamətdə düşmən layiqli cavab aldığından bir müddət başını yuxarı qaldıra bilmir. Ancaq Ağdərə uğrunda döyüşlər daha da şiddətlənmişdi. Düşmənin geri oturdulması üçün köməyə ehtiyac var idi. Bu dəfə nisbi sakitlikdən istifadə edərək Ağdamdan Ağdərəyə kömək üçün bir dəstə göndərilir.

Həmin dəstənin tərkibində İqor da var idi. Onun özü xahiş etmişdi. Harada döyüş gedirsə, hökmən İqor da orada olmalıdır.

Yenə də İqor Ağdərə uğrunda döyüşlərdə öndədir. Bütün silahlardan baş çıxardığı üçün o, gah avtomatla, gah qumbaraatanla, gah da pulemyotla düşmən üzərinə od ələyirdi.

2 avqust 1992-ci il İqor üçün son döyüş olur. "Vışka" yüksəkliyi uğrunda döyüşdə İqor "Nikulin" ləqəbli azərbaycanlı döyüşçü ilə bir yerdə 28 nəfərin mühasirədən çıxmasına şərait yaratsa da, özü bu döyüşdə qəhrəmanlıqla həlak olur.

İqor Makayevin (Gəncə Dövlət Dram Teatrının aktyoru Murad) son sözləri tamaşaçılarda duyğulu anlar yaşadır: "Ana, axı demişdim, mən Azərbaycanda dünyaya göz açmışam. İlk addımlarımı bu torpaqda atmışam. Qanım bu torpağa halaldır. Məni bu torpaqda, Gəncədə dəfn edin. Bir vaxt siz də Gəncədə olmayacaqsınız, ancaq Azərbaycan xalqı, gəncəlilər olacaq. Onlar məni heç vaxt unutmayacaqlar. Məni azərbaycanlı şəhidlərdən biri kimi dəfn edərsiniz. Sevdiyim o qıza da deyərsiniz ki, gözləsin məni. Mən qayıdacağam, sevgilim, gözlə məni..."

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, Gəncə Dövlət Dram Teatrının, Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı kollektivinin, Şəmkir birliyi əsgər xorunun çıxışları tədbir iştirakçılarını qəhrəmanlıq ənənələrini yaşatmağa, respublikamızın ərazi bütövlüyünün təmin olunması naminə hər an Ali Baş Komandanın əmrlərinə hazır olmağa çağırır.

Tədbirin sonunda Milli Qəhrəman Rəfael Əsədovun Kiyevdə yaşayan ailə üzvləri ilə telefon bağlantısı yaradılır.

Qəhrəmanın həyat yoldaşı Valentina Qriqoriyevna şəhidlərin adlarını əziz tutduqlarına, xatirələrini hörmət və ehtiramla yad etdiklərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Müdafiə Nazirliyinin, Gəncə şəhər İcra Hakimiyyətinin rəhbərliklərinə, tədbirin təşkilatçılarına, eləcə də bütün Azərbaycan xalqına, qədirbilən gəncəlilərə ailələri adından dərin minnətdarlığını bildirir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Heç kim unudulmur*

# Kursantlar qəhrəmanların məzarını ziyarət etdilər

*1995-ci il oktyabrın 28-də metronun "Ulduz" stansiyası ilə "Nərimanov" stansiyaları arasında qatarlar hərəkətdə olduğu bir vaxtda baş verən qəfil yanğın zamanı onlarla şəhər sakini faciəli surətdə həlak olmuşdu. 21 il ötməsinə baxmayaraq, o qanlı hadisə daim ürəyimizi ağrıdır. Xalqımız hər il faciənin ildönümünü ürək ağrısı ilə qeyd edir, həlak olanların xatirəsini əziz tutur.*



Metroda faciə baş verən anda sağ qalmış adamlar yaralıların köməyinə atılıblar. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabiti baş leytenant Çingiz Babayev, kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov öz həyatlarını təhlükəyə ataraq onlarla yaralını ölümün pəncəsindən xilas etmişdilər. Onların cəsarəti və igidliyi sayəsində onlarla şəhər sakini yenidən həyata qayıtmışdır. Təəssüflər olsun ki, xilaskarlar özləri də bu dəhşətli faciədə həlak oldular. Başqa insanların yolunda öz həyatlarını qurban verdilər.

Faciə zamanı yaralanmış insanların həyatını xilas edərkən göstərdiyi qəhrəmanlığa və igidliyə görə ümummilli lider Heydər Əliyevin 3 noyabr 1996-cı il tarixli fərmanı ilə baş leytenant Çingiz Adil oğlu Babayev "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov isə "İgidliyə görə" medalı ilə təltif olunmuşdular.

Xalqımız qəhrəmanlarını heç vaxt unutmur, həmişə xatırlayır, hörmətlə yad edir. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də qəhrəmanların adı həmişə əziz tutulur. Faciənin ildönümü ərəfəsində Hərbi Liseyin zabit və kursantları qəhrəmanların məzarını ziyarət etdilər.

Əvvəlcə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayevin məzarı ziyarət olundu. Baş daşından bizə 31 yaşlı Çingiz boylanırdı. Onun baxışlarından igidlik və şücaət yağırdı. Kursantlar əllərindəki qərənfil dəstələrini Ç.Babayevin məzarı üstünə qoyduqdan sonra əsgəri salam verdilər və onun ruhunu bir dəqiqəlik sükutla yad etdilər.



Sonra kursant Samir Məmmədovun məzarını ziyarət etməyə yollandılar. Onun qəbri Badamdar qəsəbəsindəki qəbiristanlıqda idi. Hərbi Liseyin kursantları 21 əvvəl əyninə kursant paltarı geyinmiş Samir Məmmədovun məzarı üstünə qərənfillər düzüb əsgəri salam verdilər. Samirin atası Nadir Məmmədov oğlu haqqında sabahımızın zabitlərinə ətraflı məlumat verdi, onun yarımçıq qalmış arzularından söz açdı. "Mən oğlumla fəxr edirəm. O hələ kiçik yaşlarından qəhrəman olacağını deyirdi. Samir dediyini elədi, adını qəhrəmanlıq tariximizin səhifələrinə böyük hərflərlə yazdırdı", - dedi.

Ehtiyatda olan polkovnik-leytenant Məhərrəm Fərziyev, kapitan Eldar Rəsulov, kursantlar Samir Məmmədov, Zaur Mehdiyev, Sadiq Əlizadə, Rəşad Eyyubov, Tural Novruzov, Asif Qəhrəmanov bildirdilər ki, biz həmişə bu cəsur oğulların adlarını əziz tutacaq, məzarlarını daim ziyarət edəcək, qəhrəmanlıqda, igidlikdə onlara oxşamağa çalışacağıq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Oktyabrın 27-də saat 16.00 radələrində hərbi poliqonlardan birində praktiki məşqlər zamanı təhlükəsizlik qaydalarının pozulması nəticəsində hərbi qulluqçumuz Miriyev Telman Mirbaba oğlu həlak olub.

Hadisə ilə bağlı Hərbi Prokurorluq tərəfindən cinayət işi başlanıb və faktla əlaqədar araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!

***28 oktyabr 2016-cı il.***

Ermәni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 16 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şirvanlı, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Ordu və cəmiyyət*

# Qələbə naminə - Vətən naminə



*Hər şəkil bir tarixdi. Bəzən fərdlər üçün, bəzən cəmiyyət üçün... Baxdıqca düşündüyümüz, düşündükcə baxdığımız şəkil də böyük mətləblərin tarixidi. Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin təşəbbüsü ilə gerçəkləşən bir ənənənin başlanğıc tarixidi. Həmin anı yaşayanlar üçün, bizim üçün tarix olan bu şəkil.*

Vətən sevgisinin, Hərbi andа sədaqətin, dövlətə etibarın tarixidi. Bu tarix Azərbaycan əsgərinin hərbi xidmət amalıdı, Vətənini sevənlərə, Vətəni üçün yaşayanlara dövlətçilik düsturudu...

Əsgər hərbi xidmətdən tərxis olunur, mahiyyəti vətənsevərlik olan kövrəklik içində sevinir əsgər. Yadına Hərbi and içdiyi gün düşür. Xidməti müddətində o anda sadiq qaldığına sevinir. Belə bir tədbirə dəvət edildiyinə sevinir; dəvət komandir ehtiramıdı, sevgisidi. Sevinir ki, qayıdınca maraqlananlara Vətən adına, hərbi xidmət adına danışılası sözü çox olacaq. Zamanında ata olaraq danışacaq, baba olaraq danışacaq. Hər kəlməsində Vətən, torpaq, dövlətçilik... Əsgər dostlarının adından danışacaq. İşğaldan azad edilmiş torpaqlarımızın qaysaqlamış yaralarını xatırlayıb danışacaq, şəhidlərin ruhuna ehtiramla danışacaq. Danışacaq ki, bu günlər unudulmasın, dünənin tarixini unutmaq sabahın tarixinə biganəlikdi...

Hərbi xidmətdən tərxis olunan əsgər aylarla səngərdaşı olduğu, mehrləşdiyi dəbilqəsini gənc əsgərə təqdim edir. Mahiyyəti Vətənə ad olan bu məqam duyğulandırıcıdı; tərxis olunan əsgərin baxışlarına hopmuş bir mətləbi duymaq gərəkdi, axı çağırışdı: "Mən xidmətim müddətində Vətən adına tapşırılan vəzifələri yerinə yetirdim. Növbə səndindi!..". Gənc əsgərin duyğulandığını tərxis olunan əsgər də hiss eləyir, baxışlarının məhrəmliyi bir ürək tutumunca artır. Gənc əsgərin baxışlarında çırpınan qürur sezilәndi, hiss edilәndi. O qürurda bir şükranlıq da var. Nədi o şükranlıq? - tərxis olunan əsgərin baxışlarında gördüyü inamı, etibar ürəyinin təpərinə təpər, gözlərinin nuruna nur bilir. "Döyüş növbəsində səni Vətənin arzuladığı kimi elə əvəzləyəcəyimə yerəgöyə inandığın kimi inan. Sən verdiyin dəbilqəni Cıdır düzündə bayraq əvəzi göylərə dikəldəcəm!" - deyir sanki...

Bu səssiz mükalimələşməni zaman anlamında bu gün vasitəsilə dünəndən sabahlara düşən işıq bilməliyik, bilirik. O işıq əsgərlərin Vətən sevgisidi, torpağa, torpaqsevərliyə sədaqətdi, Şuşaya aparacaq yolların daş-kəsəyini kürümək qətiyyətidi, illərin o üzündə söndürülmüş ocaqları alışdırma niyyətidi, şəhid analarına təsəllidi...

...Tərxis olunan əsgərin qəlbində bir sızıltı qalıb; torpaqlarımızın işğaldan azad edilməsini əsgər kimi görə bilmədi. Həmin günün qürurunu, sevincini dəbilqəsini verdiyi əsgərə arzulayır. Bayraqtəpə, Lələtəpə ovqatıyla arzulayır...

Yeri-göyü heyran edib Azərbaycan əsgərinin bir-birinə ünsiyyəti, qoca tarix illər ilə yaşadacaq bu sevgini, məhəbbəti. Bu sevgi, bu məhəbbət Vətəndi! Hər ikisinin Vətən sevgisidi!.. Bu ənənə Qələbə üçündü - Vətən üçündü!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun 2015-ci ilin yanvarından Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi yeni "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 50 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.



Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.

*Mövqe*

# Əməliyyat düsturları və döyüş aksiomundan teoremə doğru

Aprelin əvvəllərində Ermənistan silahlı birləşmələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi əks-həmlə əməliyyatlarından xeyli müddət keçməsinə baxmayaraq, onun nəticələri dünyada müzakirə olunmaqda davam edir. Bu mövzuda yazılara, süjetlərə bütün kütləvi informasiya vasitələri öz səhifələrində səxavətlə yer ayırır. Hadisələrdən müxtəlif qurumlar bir çox məqsədlər üçün istifadə edir. Beynəlxalq təşkilatlar münaqişənin həllində öz fəaliyyətlərinin əhəmiyyətinin azalmaması üçün təkliflər hazırlayır, dövlətlər dostluq, tərəfdaşlıq münasibətlərini, dəstəklərini nümayiş etdirmək üçün müxtəlif səviyyələrdə səfərlər təşkil edir, politoloqlar, ictimai xadimlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri cəmiyyət üçün dəyərli olduğunu göstərmək məqsədilə müxtəlif tədbirlər keçirir, təhlillərlə çıxış edirlər. Bütün bu tədbirlərin, həmçinin Azərbaycan diplomatiyasının uğurlu fəaliyyətinin nəticəsində yalan, uydurma və iftiralar üzərində qurulan erməni təbliğatı fiaskoya uğrayır.

Aprel döyüşlərinin nəticələrinin "təhlilində" ən çox canfəşanlıq edən, təbii ki, Ermənistandır. Ötən müddətdə elə bir gün olmayıb ki, erməni elektron informasiya resursları guya dərin təhlillərə əsaslanan və Ermənistanın "qüdrətini əks etdirən" qondarma "artsax ordusu"nun qələbələrindən ağızdolusu bəhs edən yazılar, açıqlamalar yaymasınlar.

Bu tədbirlərin işıqlandırılmasında ən təmkinli, həqiqi mövqe nümayiş etdirən isə Azərbaycandır. Bunun da, təbii ki, çox sadə izahı var. Aprel əməliyyatlarında Azərbaycan məqsədlərinə nail oldu. Bu, müharibə deyildi, əks-həmlə cavab zərbələri idi. Azərbaycan hərbi rəhbərliyinin rəsmi açıqlamalarında da deyildiyi kimi, bu, ilk addım, uzun sürən fasilədən sonra bir başlanğıc idi. İşğalçı qoşunların torpaqlarımızdan sülh yolu ilə qeyd-şərtsiz çıxarılmasına sövq edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi istiqamətində fəaliyyətimizin başlanğıcı, iradəmizin möhkəmliyinin təcəssümü idi.

Bu döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi heçə endirmək istiqamətində ermənilərin fəaliyyətində diqqət çəkən məqamlardan biri də odur ki, onlar döyüşlərdə istifadə edilən qüvvələr nisbətini hədsiz dərəcədə şişirdirlər. Özlərinin, yəni "artsaxın gücündən, qüdrətindən" də yalandan danışır. Texnikanın, silahların, əsgərlərin Yerevandan gətirildiyini və məhv edilənlərin taleyinə də məhz Ermənistanda əncam çəkildiyini rəsmi şəkildə bildirmirlər.

Ermənistan tərəfi apreldə baş verənlərə dörd günlük müharibə deməklə, öz uğursuzluqlarını ört-basdır etməyə, Azərbaycan Ordusunun qələbəsinin əhəmiyyətini azaltmağa, eləcə də özlərinin xəyali "güc" və "qüdrətlərini" Ermənistan silahlı qüvvələrində baş alıb gedən anarxiyanın, özbaşınalığın, mənfi halların kölgəsindən çıxarmağa cəhd göstərir. Eyni zamanda Ermənistanın kriminal hərbi-siyasi rejimi, pafoslu çağırışlar, şüarlar, uydurma, şişirdilmiş vətənpərvərlik çağırışlarından "ruhlanaraq döyüşə atılmaq istəyən könüllü" şəxsləri də səngərlərə cəlb etməklə ön xətdə qorxudan titrəyən və anlamadıqları ideyalar üçün mənasız yerə ölmək istəməyən erməni gənclərini qismən də olsa sakitləşdirməyə çalışırlar.

Amma onlar başa düşmək istəmirlər ki, ucuz şan-şöhrət, pulsuz yemək, özünü reklam, sosial şəbəkələrdə piar kampaniyasında iştirak xətrinə işğal olunmuş Azərbaycan torpaqlarına "yollanan" bu qocalarla ordularını, özlərini biabırçılıqdan xilas edə bilməyəcəklər. İşğal olunmuş torpaqlarımızda məhv ediləcəklərini, ağır yaralanaraq şikəst olacaqlarını bilən neçə-neçə erməni ön xəttə yollanacaq? Hələ neçə erməni ailəsi mənasız yerə, boş vədlər uğrunda ölən gənc övladlarını buraya göndərəcək? Yalnız dörd günlük "müharibə"də yüzlərlə itki verən ermənilər Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etmək uğrunda həqiqətən müharibəyə başlayarsa, onda minlərlə itki verəcəklərini yəqin hələ dərk etmirlər. Bax, onda erməni tərəfi, kriminal hərbi-siyasi rejim bu barədə nələr yazıb, nələr danışıb əhalisini sakitləşdirəcək? Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, düşmənə veriləcək cavabı daha sərt, daha dağıdıcı, dəhşətli olmaqla onu çökdürəcək və məhvinə səbəb olacaq. Ermənilər bunu da unutmasınlar.

Bu əməliyyatlar ermənilər deyirlər. Onlar Azərbaycan Ordusunun əks-zərbə əməliyyatlarına məhz bu təxribatlardan sonra başlayacağına inanmaq istəmirdilər.

Biz öz gücümüzə bir daha əmin olmaq üçün bu addımı atdıq. Ordumuz öz gücünü, mənəvi-psixoloji səviyyəsini, döyüş ruhunu, bacarığını döyüşdə göstərdi. Şəhidlər verdi, lakin torpaq azad etdi, yüksəklikləri nəzarətə götürdü, əhalimizin təhlükəsizliyinə zəmin yaratdı.

Aprel hadisələri öz təməlini 1994-cü ilin Horadiz əməliyyatlarından götürsə də, ordumuz ilk olaraq əməliyyat düsturlarının həllindən başladı. Mövqeləri möhkəmlətdi, təlimlər keçdi, mənəvi-psixoloji vəziyyətini yüksəltdi, döyüş ruhunu gücləndirdi, təlim mərkəzlərində döyüş vərdişlərini təkmilləşdirdi, yeni silah və texnikadan səmərəli istifadə qaydalarını mükəmməl öyrəndi, ən müasir texnologiyaların tətbiqi sirlərinə yiyələndi. Düşmən təxribatlarının cavabını verdikcə gücləndi, quruculuq işləri ilə məşğul oldu, qüdrətini artırdı. Xəbərdarlıq etdik ki, əgər erməni gəncləri ölmək istəmirlərsə, işğal olunmuş torpaqlarımızdan çıxıb getsinlər.

Müdafiə nazirinin tapşırığına əsasən, atəşkəsi pozan düşmənə etdiyimiz xəbərdarlıqdan sonra onun mövqelərinə, atəş nöqtələrinə cavab zərbələri endirməyə başladıq. Dedik ki, əgər təxribatlar davam edərsə, işğal olunmuş ərazilərimizdə hərəkət edən əsgər, hərbi texnika, uçan hərbi obyekt, infrastruktur məhv ediləcək. Dedik və əməl etdik, sübuta yetirdik ki, biz buna qadirik. Həmin dövrdə bir neçə ay ərzində düşmənin təxribatlarının, hücumlarının qarşısının alınması zamanı verdiyi itkilər, silah-sursatı ataraq qaçması, mövqelərimiz üzərində uçmağa cəhd göstərən düşmən PUA-larının məhv edilməsi və ən əsası, mövqelərimizə hücum etməyə cəhd göstərən düşmən helikopterinin məhv edilməsi ilə ordumuz bir daha sübut etdi ki, o, döyüş teoremlərini də uğurla həll edə bilər.

Ordumuz tərəddüd etmədən qarşıya qoyulmuş "cəbhəboyu zonada yaşayış məntəqələrimizin və dinc sakinlərimizin atəşə tutulmasına cavab vermək, insanların təhlükəsizliyini təmin etmək, strateji yüksəklikləri, müəyyən əraziləri azad etməklə, möhkəmlətməklə taktiki üstünlüyə nail olmaq" kimi döyüş tapşırığını yerinə yetirdi. Əsgərimizin gücünü, qüdrətini görən düşmən anladı ki, əgər xain əməllərindən əl çəkməsə, ona bir daha sərt cavab, layiqli dərs veriləcək.

Torpaqlarımızın işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunması bir aksiomdur. Aprel döyüşləri göstərdi ki, Silahlı Qüvvələrimizin gücü, qüdrəti kifayət qədərdir. Azərbaycan əsgəri sübut etdi ki, dünya ictimaiyyəti bu məsələnin sülh yolu ilə həllinə nail ola bilməsə, münaqişənin hərbi yolla həlli - Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi mümkündür. Azərbaycan əsgəri bu müqəddəs vəzifənin yerinə yetirilməsində əzmlidir. Bunun üçün ölkəmizin iqtisadi, hərbi qüdrəti və ordumuzun döyüş ruhu yetərincədir. Bu gün ordumuz yenə də gündəlik xidməti-döyüş vəzifələrini inamla yerinə yetirərək, təlim meydanlarında döyüş təcrübəsini, peşəkarlığını artırmaq istiqamətində səylərini davam etdirir. Hər kəs əmin ola bilər ki, Silahlı Qüvvələrimiz xalqımızın iradəsi, Ali Baş Komandanın əmri ilə və torpaqlarımızı işğaldan azad etməyə hazırdır və qadirdir.



**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Hərbi Dəniz Qüvvələrində seminar keçirilib

*Hərbi Dəniz Qüvvələrində (HDQ) döyüş hazırlığının, hərbi intizamın və qoşun xidmətinin yüksəldilməsi istiqamətində komandir-rəis heyətinin iştirakı ilə seminar keçirilib.*



"Mənəvi-psixoloji hazırlıq işinin təşkili, hərbi intizamın möhkəmləndirilməsi və qoşun xidmətinin təkmilləşdirilməsi üzrə komandirlərin, qərargah rəislərinin və şəxsi heyətlə iş üzrə komandir müavinlərinin iş sisteminin Azərbaycan Respublikası Silahlı Qüvvələrində tətbiqi" mövzusunda keçirilən seminarda HDQ komandanının şəxsi heyətlə iş üzrə müavini, 1-ci dərəcəli kapitan Natiq Bağırov bu istiqamətdə şəxsi heyətin üzərinə düşən vəzifə və tapşırıqları diqqətə çatdırıb.

Sonra seminar iştirakçılarına kateqoriya üzrə komandir-rəis heyətinin iş sistemi ilə bağlı ətraflı məlumat verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Bölmələrdə ictimai-siyasi hazırlıq yüksək səviyyədədir

*Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsində ictimai-siyasi hazırlıq dərsləri mühüm əhəmiyyət kəsb edir. Hər bir əsgər və zabitin döyüş hazırlığı ilə bərabər ictimai-siyasi hazırlığı da yüksək olmalıdır.*



Son illər ordumuzda qazanılan uğurlar onu deməyə əsas verir ki, bu gün Silahlı Qüvvələrimizdə şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji və ictimai-siyasi hazırlığı da yüksək səviyyədə təşkil olunub. Orduda döyüş hazırlığının tərkib hissəsi hesab edilən ictimai-siyasi hazılıq dərsləri peşəkar zabitlər tərəfindən keçirilir. Zəruri əyani vəsaitlər çap edilib bütün hərbi hissələrə göndərilir və mədəni-kütləvi tədbirlərin keçirilməsinə ciddi önəm verilir.

Son illər yaradılan müasir hərbi şəhərciklər və burada təşkil edilən ictimai-siyasi kabinetlər, Heydər Əliyev mərkəzləri diqqət çəkən məqamlardandır.

Cəbhə bölgəsindəki "N" hərbi hissəsində ezamiyyətdə olarkən şəxsi heyətin ictimai-siyasi hazırlığı ilə maraqlandım. Müasir tipli hərbi hissənin geniş, işıqlı, zəngin ekspozisiya quruluşuna malik olan ictimai-siyasi kabineti diqqətimi cəlb etdi. Burada müəyyən vaxtlarda şəxsi heyətə ictimai-siyasi hazırlıq dərsləri keçirilir, həmçinin onların asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılır. Otağa quraşdırılan iri televizor, ədəbi-bədii ədəbiyyatlardan ibarət guşə şəxsi heyətin istifadəsindədir. Əsgərlər asudə vaxtlarında buraya toplaşır, hərbi vətənpərvərlik və müharibə mövzusunda çəkilən filmlərə tamaşa edirlər.

Ümummilli liderimiz Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin portretləri və ordu quruculuğu barədə söylənilən kəlamları otağın ekspozisiya quruluşunda yer alıb. Ali Baş Komandanımızın "Ordumuzun döyüş qabiliyyəti artır, güclənir. Bu gün bizim ordu istənilən vəzifəni icra edə bilər", - kimi müdrik fikirləri lövhələrdə əks olunub.

Hərbi hissənin ictimai-siyasi hazırlıq sistemində önəm daşıyan amillərdən biri də divar mətbuatının fəaliyyət göstərməsidir. "İstehkamçı" aylıq mətbu orqan xüsusi tərtibatı ilə fərqlənir və hərbi hissənin fəaliyyət prinsiplərinə uyğun mükəmməl hazırlanır. Eyni zamanda şəxsi heyət ordumuzun təbliğat vasitələrindən olan "Azərbaycan Ordusu" qəzetinin və "Hərbi bilik" jurnalının bütün saylarını oxuyur, mətbuat sahəsində mütaliələrini artırırlar.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr



## İl-76 hərbi-nəqliyyat təyyarəsi

İl-76 ağır hərbi-nəqliyyat təyyarəsidir. Rusiya mütəxəssislərinin bu layihəsi ilk dəfə Özbəkistanda Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyində buraxılıb, sonradan onun istehsalı Ulyanov aviastar müəssisəsində davam etdirilib. İlk dəfə İl-76 təyyarəsi 1971-ci ildə beynəlxalq ictimaiyyətə təqdim olunub. Sınaqlardan sonra HHQ-nin silahlanmasına qəbul edilib, "Şit-76" və "Şit-78" təlimlərində yaxşı göstərişlərə nail olub. 1973-cü il mayın 5-də Daşkənd aviasiya zavodunun aerodromundan ilk uçuşu həyata keçirilib. Bir il ərzində 1000-ə qədər bu adda təyyarə istehsal olunub və onun 100-dən çoxu ixrac edilib.

1980-ci ilin sonunda baş konstruktor Papkovskinin rəhbərliyi altında təyyarənin yeni İl-76MFTF modelinin istehsalına başlanılıb və 1995-ci ildə ilk uçuşu həyata keçirilib. Kabinəsi hermetləşdirilmiş təyyarə 167 nəfəri daşımağa və 126 nəfərlik desant qrupu ilə, hava-desant bölmələrinin və motoatıcı diviziyanın döyüş hissələrini daşımağa qadirdir. Kabinəsinin ölçüsü 24,5 metr uzunluğunda, 3,45 metr enində və 3,4 metr hündürlüyündədir. Təyyarə orta hesabla saatda 9 ton yanacaq sərf etməklə 6700 kilometrə qədər məsafəni dəf etməyə qadirdir. Onun güc qurğusu dörd borureaktiv mühərriklə təchiz edilib. Mühərriki təyyarəyə saatda 260-280 kilometr sürətində uçmağa imkan verir.

İl-76 təyyarəsinin yanğınəleyhinə sistemi yanğının aradan qaldırılması üçün nəzərdə tutulub. Döyüş əməliyyatları zamanı yanacaq çənlərini partlayışdan və yanğından qorumaq üçün qaz və elektrik təchizatını təmin etmək üçün elektrik sistemi, həmçinin müasir işıqlandırma sistemi mövcuddur.

Təyyarənin bort sistemi uçuşun güc qurğularını, uçuş parametrlərini, cihazlanma sistemlərini, uçuşun həyata keçirilməsini maqnit lentinə köçürür. Yerə ötürülərək şifrələnir və maqnitofon vasitəsilə oxunur. Avtomat idarəetmə sistemi isə təyyarənin marşrut üzrə hərəkətini və uçuş hündürlüyünü idarə edir. Təyyarənin silahlanmasına iki artilleriya qurğusu, optik və radiolokasiya sistemi olan "Kripton" nişangahı, avtomat silahı və s. daxildir. İl-76 təyyarəsinin təlim, uçan laboratoriya, fyüzelyajlı, uzaq məsafəli, yanğınsöndürən, hospital-təyyarə, təchizat, hərbi-nəqliyyat, mülki, xilasetmə-axtarış və s. modelləri də hazırda fəaliyyətdədir.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Pakistan-Hindistan sərhədində baş verən atışmada ölənlər var



Pakistan-Hindistan sərhədində baş verən növbəti atışma üç nəfərin həyatına son qoyub, 14 nəfər yaralanıb.

Xatırladırıq ki, sentyabrın 29-da Pakistan-Hindistan sərhədində baş vermiş qarşıdurmadan sonra iki ölkə arasında gərginlik daha da artıb.

## İŞİD yaraqlıları ötən həftə Mosulda 232 nəfəri qətlə yetiriblər



İŞİD terror qruplaşmasının yaraqlıları ötən həftə İraqın Mosul şəhərində və onun ətrafında 232 nəfəri edam ediblər. Bu barədə məlumat BMT tərəfindən yayılıb.

Qətlə yetirilənlərin 190 nəferi İraq təhlükəsizlik qüvvələrinin sabiq əməkdaşlarıdır. Yerdə qalan 42 nəfər isə qruplaşmanın sıralarına qoşulmaqdan imtina etdiklərinə görə öldürülüb.

## Mosuldakı Telkif qaz emalı stansiyası İraq ordusunun nəzarətinə keçib



Mosuldakı Telkif qaz emalı stansiyası İraq ordusunun nəzarəti altındadır.

Mosulun İŞİD-dən azad edilməsi əməliyyatı çərçivəsində ordunun 16-cı bölüyü Telkif bölgəsindəki qaz emalı stansiyasına nəzarəti təmin edib.

## Bolqarıstanın ərazi sularında qədim gəmilərin qəbiristanlığı tapılıb



Beynəlxalq alimlərdən ibarət qrup Qara dənizdə 40 qədim gəminin olduğu qəbiristanlıq tapıb. Qəbiristanlığa Qara dənizdə geofiziki araşdırmalar zamanı təsadüfən rast gəlinib. Tapıntı Bolqarıstanın ərazi sularında yerləşir.

Southampton Universitetinin dəniz arxeologiya mərkəzinin ekspertləri 1800 metr dərinliyinə iki sualtı robot yerləşdiriblər və məhz bunların vasitəsilə gəmiləri aşkar etmək mümkün olub. Alimlər qeyd edirlər ki, qəbiristanlıqda Osmanlı və Bizans gəmilərinə rast gəlmək olur. Artıq onların bəzilərinin görünüşünü 3D modelləşdirmə vasitəsilə bərpa etmək mümkün olub.

## Əfqanıstanda sutka ərzində 66 yaraqlı öldürülüb



Əfqanıstan təhlükəsizlik qüvvələri ötən sutka ərzində ölkənin müxtəlif bölgələrində keçirdikləri xüsusi əməliyyatların gedişində azı 66 yaraqlının öldürüldüyünü bildirib.

Əfqanıstan Müdafiə Nazirliyinin məlumatına əsasən, öldürülən yaraqlıların əksəriyyəti İŞİD qruplaşmasının üzvləridir. Həmçinin əməliyyatlar nəticəsində 23 yaraqlı yaralanıb, 11 nəfər isə saxlanılıb.

Döyüşlər zamanı azı 6 hərbçinin də həlak olduğu bildirilir.

Ekspertlər son zamanlar şərq və cənub əyalətlərində, eləcə də ölkənin şimalında ekstremistlərin mövqelərinin möhkəmləndiyini qeyd edirlər. Həmçinin "Taliban" yaraqlıları və səhra komandirlərinin İŞİD sıralarına qoşulması halları da artır.

**AZƏRTAC-ın materialları əsasında**

# İkinci Dünya müharibəsi zamanı həlak olmuş azərbaycanlıların xatirəsi əbədi yaşayacaq

*Respublika Veteranlar Təşkilatında İkinci Dünya müharibəsində Moldova Respublikası ərazisində həlak olmuş və itkin düşmüş sayılan 206 nəfər azərbaycanlı döyüşçünün dəfn olunduğu yerlərin tapılması və xatirəsinin yad edilməsi ilə bağlı tədbir keçirilib.*




Eyni zamanda, "İkinci Dünya müharibəsində Moldova Respublikası ərazisində həlak olmuş azərbaycanlıların xatirə kitabı"nın Respublika Veteranlar Təşkilatında təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov çıxış edərək deyib: "Təşkilat İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibələrində döyüşmüş, həlak olmuş, itkin düşmüş əsgər və zabitlərimizin taleyinə aydınlıq gətirilməsi istiqamətində ardıcıl iş aparır. Böyük Vətən müharibəsində Azərbaycan faşizm üzərində qələbəyə böyük töhfələr verib. Azərbaycanlılar bu müharibədə əsl rəşadət, igidlik göstərib, onlardan 127 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına, on minlərlə soydaşımız orden və medallara layiq görülüblər. Azərbaycanlıların döyüş yolu həm də Moldovanın alman-faşist işğalçılarından azad olunmasından keçib. Bu Qələbədən 71 il keçməsinə baxmayaraq, həmin müharibədə iştirak etmiş azərbaycanlıların bir hissəsinin taleyi hələ də aydınlaşmayıb. Lakin Azərbaycanın Moldovadakı səfirliyinin əməkdaşlarının və Azərbaycan diasporunun apardıqları araşdırmalar nəticəsində vaxtilə itkin düşmüş soydaşlarımızdan 206-nın kimlikləri, təvəllüd tarixləri, rütbələri, hərbi xidmətə çağırıldıqları tarix, məntəqələr, dəfn yerləri müəyyən olunub, sənədlərinin saxlandığı arxivlər dəqiqləşdirilib.

Müharibədə həlak olmuş azərbaycanlı döyüşçülərin dəfn edildikləri yerlərin müəyyənləşməsi Azərbaycan xalqının qəhrəmanlıqlarının dünya ictimaiyyətinə çatdırılmasında mühüm əhəmiyyətə malikdir".

Azərbaycanın Moldovadakı keçmiş səfiri Namiq Əliyev soydaşlarımızın taleyinə aydınlıq gətirilməsində bu ölkənin dövlət orqanlarının və müvafiq qurumlarının, xalqının göstərdiyi köməklikdən, səfirliyimizin bu istiqamətdəki fəaliyyətindən danışıb.

Qeyd edib ki, müharibə zamanı Moldova ərazisində azərbaycanlılardan ibarət 223-cü Belqrad və 416-cı Taqanroq atıcı diviziyalar kimi hərbi birləşmələr döyüşüb. İki ildən çox davam edən axtarışlar və araşdırmalar nəticəsində indiki Moldova Respublikası ərazisində həlak olmuş 206 nəfər Azərbaycan döyüşçüsünün məzarı aşkar edilib.

İkinci Dünya müharibəsi veteranı Aleksandr Qritçenko, Nəsimi rayonu Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov və digər veteranlar müharibə xatirələrini yada salıb, döyüşçülərimizin şücaətindən danışıblar. Onlar itkin düşmüş soydaşlarımızın taleyinə aydınlıq gətirilməsini yüksək qiymətləndirərək bu xeyirxah işdə, eləcə də "İkinci Dünya müharibəsində Moldova Respublikası ərazisində həlak olmuş azərbaycanlıların xatirə kitabı"nın hazırlanmasında əməyi olanlara, o cümlədən Azərbaycanın bu ölkədəki səfirliyinin əməkdaşlarına minnətdarlıqlarını bildiriblər.

Sonra bir qrup şəxsə Respublika Veteranlar Təşkilatının yubiley medalları təqdim edilib.

*Redaksiyamızın poçtundan*

# Narkomaniya cəmiyyətin böyük bəlasıdır

*Hər bir xalqın gənclərinin fiziki və mənəvi sağlamlığı dövlət üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycanda dövlət tərəfindən gənclərə yetərincə qayğı göstərilir, böyüyən nəslin inkişafı, sağlam həyat tərzinin təşkili davamlı olaraq ölkə rəhbərliyinin diqqət mərkəzindədir.*



Gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları ölkəmiz üçün narahatedici problem olaraq qalır. Son illər respublikamızda da bu ümumbəşəri bəlaya qarşı mübarizə xeyli gücləndirilmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatlar da fəallığı artırmışlar.

Cəmiyyətimizin tamhüquqlu üzvü kimi baş verən hadisələrə, olanlara biganə qala bilmərəm. Bu gün milli heysiyyatıma toxunan, məni ciddi narahat edən problemlər var. Cəmiyyətin normal inkişafına mane olan belə problemlər təkcə bu və ya digər təşkilatın işi ilə həll edilə bilməz. Bu problemlər ümumən hamımızı narahat etməlidir. Belə problemlərdən biri də narkomaniyadır.

Bir hadisəni xatırlayıram. Gənc ali təhsilli həkim idmanla müntəzəm məşğul olurdu. Beynəlxalq miqyaslı yarışlarda böyük uğurlar qazanmışdı. Necə olub, hansı səbəblərdən olub? - narkomaniyaya qurşanıbmış. Qısa müddətdə ailəsi dağıldı, işini itirdi, səfil həyat tərzi onu pis günə qoydu. Utancdanmı, istifadə etdiyi narkotik vasitələrə lazım olan pula görəmi, hər nə isə, xarici ölkələrdən birinə getdi. Orada elə bu səbəbdən mühakimə etdilər.

Gördüyü kimi, narkomaniyaya qurşanmaq ali təhsilli həkimi, böyük idman uğurları qazanmaq imkanları olan bir gənci məhv etdi.

Narkomaniya, həqiqətən cəmiyyətin böyük bəlasıdır.

Əmimin bir dostu var. Qızına böyük təmtəraqla toy etmişdi. Bir-birinə münasib ailələrdə böyümüş gənclər xoşbəxt olmalıydılar: ataları özlərinə görə imkanlı, özləri ali təhsilli, hər ikisinin işi. Xoşbəxtlik üçün bunlar yetərli deyilmiş. Xoşbəxtlik üçün cəmiyyətə layiq xarakterə, mədəniyyətə, davranış tərzinə malik olmalısan. Cəmiyyətin sevmədiyi, qəbul etmədiyi vərdişlərə aludə olanlar xoşbəxtliyin seyrçisi olur, xoşbəxt olmurlar. Az müddətdən sonra gəlin hiss edir ki, əri narkomandır. Nə qədər dilə tutur, xahiş edir ki, bu yoldan çəkinsin. Söz verir, sözünü yerinə yetirmir. Vəziyyəti hər ikisinin ata-anası bilir. Cəmi altı ay yaşadılar. Ailə dağıldı. Az müddətdən sonra qız ailə qurdu. Xoşbəxtliyin nə olduğunu indi bütün çalarları ilə duyur və yaşayır. Bəs oğlan? Oğlanı işdən azad etdilər. Narkomanlığa qurşandığına görə. Atası fikirdən infarkt keçirdi, az sonra rəhmətə getdi. Oğlan anasının belə eşitmədi, əvvəl atasının maşınını, sonra anasının azdan-çoxdan olan ziynət əşyalarını, evlərini satdı. Səfil günə düşdü...

Normal, nümunəvi həyat tərzi yaşayanlar da, zərərli vərdişə aludə olanlar da unutmamalıdırlar ki, torpaqlarımız işğaldan azad edilməlidir. Narkoman silah tuta bilərmi? Narkoman səfil həyat tərzindən qopub döyüşlərə gedə bilərmi? Ailəsini, doğma balasını narkotiklərə görə əzablara tuş eləyən şəxs Vətənin də qədrini bilməz. Bəs nə etməli ki, cəmiyyətimiz bu bəladan xilas olsun?! Axı biz gənclər narkomaniyasız cəmiyyətdə yaşamaq, yaratmaq istəyirik.

**Gülsürə HÜSEYNOVA**



# Əlahiddə Ümumqoşun Orduda hərbi beşnövçülük birinciliyi keçirilib

Əlahiddə Ümumqoşun Orduda "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan kütləvi idman tədbirləri artıq ənənə halını alıb. Bu dəfə isə hərbi beşnövçülük birinciliyi keçirilib.

Əvvəlcə hərbi qulluqçuların birinciliyə hazırlığı barədə məruzə edilib. Sonra Əlahiddə Ümumqoşun Ordunun fiziki hazırlıq və idman bölməsinin rəisi mayor Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini şəxsi heyətin nəzərinə çatdıraraq iştirakçılara uğurlar arzulayıb. Bildirilib ki, yarışın keçirilməsində məqsəd hərbi qulluqçuların dözümlülüyünü yoxlamaq, silahdan düzgün atış qaydalarını, qumbaranın uzaqlığa və dəqiqliyə atılması vərdişlərini təkmilləşdirməkdir.

15 komandanın tərkibində 100-ə yaxın hərbi qulluqçunun gücünü sınadığı yarış gərgin mübarizə şəraitində keçib. İdmançı hərbi qulluqçular maneələr zolağının dəf edilməsi, qumbaraatma, maneələrlə üzmə, atış və kross qaçışı üzrə yarışıblar. Nəticələrə gəldikdə isə maneələr zolağını dəfetmə üzrə əsgər Məmmədhüseyn Həsənov, avtomatdan 200 metr məsafəyə atış üzrə əsgər Turqay Mahmudov, 50 metr məsafəyə üzgüçülük üzrə əsgər Sənan Səmədli, uzaqlığa və dəqiqliyə qumbaraatma üzrə gizir Şahin Şəfiyev, 8 km məsafəyə kross qaçışı üzrə əsgər Əyyub Ələkbərli ən yaxşı nəticə göstərərək birinci yerin qalibi olublar. Ümumi nəticədə isə əsgərlər Vəhdət Əsədov, Məmmədhüseyn Həsənov və Əyyub Ələkbərli müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerdə qərarlaşıblar.

Qaliblər Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən diplom və kuboklarla, fəxri fərmanla təltif ediliblər.

**Nəriman NƏCƏFOV,**
**foto**
**Aydın ORUCOVUNDUR**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əminov Samir Arzuman oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.



| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98<br>Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | mayor Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 547<br>Nüsxə 4650 |